7 fevral 2019-cu il, cümə axşamı XALQ QƏZETİ

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 37** **Bakı şəhəri, 5 fevral 2019-cu il**

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi haqqında Əsasnamə"nin 5.11-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin kollegiyasının 14 nəfərdən ibarət aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzinin direktoru

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin tabeliyində Kadastr və Yer-quruluşu Layihə-Tədqiqat Mərkəzinin direktoru

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının hüquq şöbəsinin müdiri

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının dövlət əmlakının özəlləşdirilməsi və icarəyə verilməsi şöbəsinin müdiri

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının maliyyə, iqtisadi proqnozlaşdırma və daxili audit şöbəsinin müdiri

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Aparatının yerli qurumlarla iş və dövlət ehtiyaclarının ödənilməsinin təşkili şöbəsinin müdiri.

**2.** "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 iyun tarixli 232 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 804; 2016, № 6, maddə 1189) 1-ci hissəsi ləğv edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***